Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyində

# DÖVLƏT DƏNİZ VƏ LİMAN AGENTLİYİ

## "CASPIAN POVER" (9534236 BDT nömrəli)

## DƏNİZ QƏZASI ARAŞDIRMA HESABATI




**BAKİ - 2024**

**Dəniz Qəzalarının Araşdırılması Komissiyası**
Azərbaycan, Bakı şəhəri, Xanlar küçəsi 2B, AZ1003

Tel: (+994) 12 497 44 05 (dax.: 123)
Mob: (+994) 51 464 52 32 (24 saat)
Fax: (+994) 12 497 44 06
E-mail: mcib@ddla.gov.az
Web: www.ddla.gov.az



## AÇIQLAMA

Milli və beynəlxalq qanunvericiliyə uyğun olaraq, Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyində olan Dövlət Dənizçilik və Liman Agentliyi (bundan sonra "DDLA") dəniz qəzaları və hadisələri ilə bağlı dəniz təhlükəsizliyi araşdırması apararaq dənizdə həyatın və gəmilərin təhlükəsizliyini artırmaq, həmçinin dəniz və ətraf mühitinin çirklənməsinin qarşısını almaq məqsədi daşıyır. Bu araşdırmalar günahkarlıq müəyyən etmək və ya məsuliyyət təyin etmək məqsədi daşımır.

Bu hesabatda verilən məlumatların dəqiqliyi təmin edilməsi üçün hər cür səy göstərilsə də, Agentlik və onun nümayəndələri, araşdırmaçıları, işçiləri və ya tərəfdaşları təqdim olunan məlumatlar və nəticələr, həmçinin iddia edilən səhvlər və nöqsanlar ilə bağlı hər hansı bir məsuliyyəti rədd edir.

Bu hesabatın hissələri mənbə düzgün göstərildiyi təqdirdə əvvəlcədən icazə olmadan çoxaldıla bilər. Digər hallarda çoxaldılma üçün Agentlikdən icazə alınmalıdır.

## SƏLAHİYYƏT

Qəza səbəbini müəyyən etmək üçün DDLA Milli qanunvericilik və qaydalar əsasında, ölkənin tərəf olduğu bütün müvafiq beynəlxalq konvensiyalar və sazişlərə uyğun olaraq təhqiqat aparılmışdır.

# MÜNDƏRICAT

AKRONIMLƏRİN SİYAHISI ........................................ 4
RƏSİMLƏRİN SİYAHISI ........................................ 5
XÜLASƏ ........................................ 6
GƏMİ MƏLUMATLARI ........................................ 7
SƏFƏR MƏLUMATLARI ........................................ 10
DƏNİZ QƏZASI MƏLUMATLARI ........................................ 11
DƏNİZ QƏZASININ TƏSVİRİ ........................................ 12
DƏNİZ QƏZASININ NƏTİCƏLƏRİ ........................................ 15
DƏNİZ QƏZASINDA AİDİYYƏTİ OLAN ŞƏXSLƏR HAQQINDA MƏLUMATLAR ............ 18
DƏNİZ QƏZASININ BAŞVERMƏ SƏBƏBİ VƏ ŞƏRAİTİ ........................................ 19
DƏNİZ QƏZASINDA AİDİYYƏTİ OLMASI MÜƏYYƏN EDİLMİŞ FAKTLAR .................... 20
Xarici amillərin təsiri, psixoloji durumu, yorğunluq dərəcəsi nəzərə alınmaqla, dəniz qəzasında aidiyyəti olan şəxslərin hərəkətlərinin qiymətləndirilməsi ................................ 21
Kimin tərəfindən hansı tələblərin pozulduğu göstərilməklə, hərəkət və ya hərəkətsizliyi dəniz qəzasına səbəb olmuş və ya təkan vermiş şəxslərin siyahısı ................................ 21
Gələcəkdə dənizdə belə qəzaların qarşısının alınmasına dair tövsiyələr......................... 22

## AKRONIMLƏRİN SİYAHISI



m ....................................................................................................... metr

B/K ..................................................................................................Baş Köməkçi

N/K ..................................................................................................Növbə köməkçisi

B/M ..................................................................................................Baş Mexanik

2/M ..................................................................................................İkinci mexanik

ÜT(GT) ...........................................................................................Ümumi Tutum

SX ...................................................................................................Sahilboyu Xəbərdarlıq

DM(DP)...............................................................................Dinamik Mövqeləndirmə

EXEMS(ECDIS).................................................... Elektron Xəritə Ekranı və Məlumat Sistem

MİP.......................................................................................Mərkəzi İdarəetmə Postu

QMS(GPS).......................................................................Qlobal Mövqeləndirmə Sistemi

QDFƏRS (GMDSS).................................Qəza Zamanı Dəniz Fəlakət Ənmiyyətli Rabitə Sistemi

BDT......................................................................................Beynəlxalq Dəniz Təşkilatı

DMXK(MMSI)..................................................................... Dəniz Mobil Xidməti Kimliyi

ABS.......................................................................................American Bureau of Shipping

ƏİS (İSM)...............................................................................Əmniyyətli İdarəetmə Sistemi

ÇYT (VHF)..............................................................................Çox Yüksək Tezlikli

## RƏSİMLƏRİN SİYAHISI

Şəkil 1. Helicopter görüntüsü. "Caspian Pover" gəmisini ətrafdakı gəmilərin söndürməyə çalışması. ........13
Şəkil 2. Helicopter görüntüsü, “Caspian Pover” gəmisində FHN-in yanğınsöndürmə əməliyyatı. ........14
Şəkil 3. Yangından sonra "Caspian Pover" gəmisinin limandan görüntüsü. ........15
Şəkil 4. Yanğından sonra "Caspian Pover" gəmisinin göyərtəsi ........16
Şəkil 5. Yanğından sonra "Caspian Pover" gəmisinin kapitan körpüsü ........16
Şəkil 6. Yanğından sonra "Caspian Pover" gəmisinin baş mühərriki ........17

## XÜLASƏ

31 iyul 2024-cü il tarixində saat 04:07 radələrində “Caspian Pover” gəmisinin maşın bölməsində açıq alov ilə yanğın hadisəsi baş vermişdir. Yanğın sağ baş mühərrikin yüksək təzyiqli yanacaq nasosunda əmələ gələn nasazlıqdan baş vermişdir. Yanğının söndürülməsi gəmi heyətinin yanğın söndürmə qrupunun səyi və gəmidəki sabit $CO_2$ yanğınsöndürmə sisteminin istifadəsi ilə mümkün olmamış gəmi kapitanı tərəfindən gəminin tərk edilməsinə qərar verilmişdir

Heyətin və xüsusi personalın gəmidən evakuasiyası uğurlu olmuş hadisə zamanı ciddi xəsarət alan olmamış, dəniz ətraf mühitin çirklənməsi müşahidə edilməmişdir. Gəminin söndürülməsi əməliyyatı 3 gün sürmüş, nəticədə gəmi tamamilə yanaraq istismara yararsız hala düşmüş, 3 sentyabr 2024-cü il tarixində çıxdaş edilmişdir

Tövsiyələrə heyətin müntəzəm hazırlığı, yanğın təlimləri və gələcəkdə oxşar hadisələrin qarşısını almaq üçün yanğınsöndürmə sistemlərinə daha ciddi texniki qulluq daxildir. Araşdırma zamanı qəzaya səbəb ola biləcək hər hansı xarici faktor, psixoloji çətinliklər və ya yorğunluq aşkar etməyib.

## GƏMİ MƏLUMATLARI

"Caspian Power" 2010-cu ildə Çində inşa edilmiş, Azərbaycan bayrağı altında qeydiyyatdan keçmiş yedək-təchizat gəmisidir. Uzunluğu 72,5 metr və ümumi tonajı 2921, 9000 kVt gücə malik iki Rolls-Royce B3240L9P mühərriki ilə təchiz edilmişdir. Gəmi GPS, AIS və radar daxil olmaqla qabaqcıl naviqasiya və kommunikasiya sistemlərinə malikdir və xilasedici qayıqlar, xilasedici sallar, yanğınsöndürənlər və tənəffüs aparatları kimi hərtərəfli təhlükəsizlik və yanğınsöndürmə avadanlığı ilə təchiz olunub.



| **ÜMUMİ MƏLUMATLAR** | |
|---|---|
| Gəminin adı | "Caspian Pover" (yedək -təchizat gəmisi) |
| Gəminin bayrağı | Azərbaycan Respublikası |
| BDT nömrəəsi | 9534236 |
| Qeydiyyat limanı və nömrəsi | Bakı, BR-204 |
| Gəmi sahibi | "Caspian Pover Limited" |
| İnşa yerii və tarixi | Çin, 2010 |
| Təsnifat simvolu | ✠ A1, Towing Vessel, AH, Fire Fighting vessel Class 1, Offshore Support Vessel, Ⓔ, ✠ AMS, ✠ DPS-2 |
| Gəmi ölçüləri | uzunluq: 72.5 m, en: 17 m,<br>bort hündürlüyü: 7.5 m |

| | |
|---|---|
| Tutumları | Ümumi: 2921.00, Xüsusi: 876.00 |
| Baş Mühərrik | DYM ROLLCE-ROYCE B3240L9P, 2x4500 kW |
| Pərvanələr | 2 ədəd 4 pərli tənzimlənən vint |
| Sükan qurğusu | Elektro-hidravlik sükan |
| Sürət | 10.00 düyün |
| Hadisə anında suya oturumu | burun: 4.80 m, arxa: 5.20 m |
| Sərnişin | 18 nəfər xüsusi personalı |
| Yük | 7 ədəd konteyner- 30 ton |
| Heyət | 23 nəfər |

| **Xilasedici avadanlıqlar** | |
|---|---|
| | - 10 xilasedici dairə<br>- 104 Xilasedici jilet<br>- 53 Qoruyucu kostyum<br>- 1 ədəd 10 nəfərlik növbətçi qayıq<br>- 6 ədəd 25 nəfərlik xilasedici sal,<br>- 4 ədəd ip atan qurğu,<br>- 12 ədəd paraşüt raketi. |



| **Radio Naviqasiya avadanlıqları** | |
|---|---|
| Radiostansiyanın gücü və əhatə radiusu | A1, A2, A3 |
| | - 1 ədəd əsas maqnit kompası<br>- 1 ədəd girokompas,<br>- 2 ədəd pelenqator,<br>- 2 ədəd radar,<br>- 1 ədəd GPS avadanlığı<br>- 1 ədəd AİS avadanlığı<br>- 1 ədəd NAVTEX cihazı<br>- 1 ədəd dərinlik ölçən cihaz<br>- 1 ədəd qəza radiobuyu<br>- 2 ədəd radiolokasiya cavabvericisi |
| | - 2 ədəd stasionar YT/OT radiostansiyası<br>- 2 ədəd stasionar ÇYT radiostansiyası<br>- 3 ədəd səyyar qəza ÇYT radiostansiyası<br>- 5 ədəd səyyar UYT radiostansiyası<br>- 1 ədəd peyk internet sistemi<br>- 1 gəmi mühafizəsinin xəbərdarlıq siqnal sistemi |
| | - 1 ədəd İNM-C peyk xəbərləşmə sistemi<br>- 1 ədəd Körpünün Naviqasiya Nəzarət Siqnalizasiya sistemi<br>- 1 ədəd əl lotu<br>- 1 ədəd saniyə ölçən<br>- 2 ədəd durbin<br>- 1 ədəd barometr<br>- 1 ədəd krenometr |
| | |

| Yanğından mühafizə vasitələri | |
|---|---|
| | - 1 ədəd 6 kq-lıq portativ karbon qazlı yanğınsöndürən balon,<br>- 29 ədəd 9 litrlik portativ köpüklü yanğınsöndürən balon,<br>- 2 ədəd 2 kq-lıq portativ tozlu yanğınsöndürən balon,<br>- 54 ədəd 9 kq-lıq portativ tozlu yanğınsöndürən balon, |
| | - 24 ədəd 45 kq-lıq stasionar karbon qazlı yanğınsöndürmə sistemi<br>- 2 ədəd yanğın nasosu<br>- 1 ədəd qəza yanğın nasosu<br>- 94 ədəd yanğın həyəcan siqnalı düyməsi<br>- 250 ədəd yanğın həyəcan zəngi<br>- 300 ədəd yanğın xəbərdarlıq tüstü detektoru<br>- 39 ədəd yanğın xəbərdarlıq istilik detektoru |
| | - 6 ədəd yanğına davamlı kostyum,<br>- 1 ədəd stasionar su ilə yanğınsöndürmə sistemi,<br>- 6 ədəd avtonom tənəffüs aparatı,<br>- 48 ədəd yanğın xortumu<br>- 2 ədəd beynəlxalq sahil birləşməsi,<br>- 3 dəst yanğınla mübarizə avadanlığı |
| | - 4 ədəd metal qum yeşiyi<br>- 2 ədəd yanğınsöndürən ədyal<br>- 28 ədəd qəza qaçış tənəffüs aparatı |

## SƏFƏR MƏLUMATLARI

| | |
|---|---|
| **Çıxış tarixi və limanı** | 29 iyul 2024-cü il saat 18:30 "Puta dəniz limanı" |
| **Varış əraqzisi** | Xəzər dənizi "Çıraq-1" dəniz özülünün yaxınlığı |
| **Əməliyyatın növü** | Sualtı boru kəmərlərinin tədqiqi |
| **Yük məlumatı** | Cəmi 30 ton ağırlığında dalğıc avadanlıqları ilə 7 ədəd konteyner. |
| **Heyət** | 23 nəfər gəmi heyəti və 18 nəfər dalğıc və araşdırma işləri ilə məşğul olan xüsusi personal |

## DƏNİZ QƏZASI MƏLUMATLARI

| | |
|---|---|
| **Tarix və saat** | 31 iyul 2024-cü il saat 04:07 radələri |
| **Dəniz hadisəsinin növü** | Sağ baş mühərrikin yüksək təzyiqli yanacaq nasosunda yaranan nasazlıqdan yaranan açıq alovlu yanğın hadisəsi. |
| **Hadisə baş verən ərazi** | "Azəri-Çıraq" neft platforması yaxınlığı, 40º 07' 42" N, 051º 09' 41" E coğrafi koordinatlar. |
| **Yaralı/Ölüm** | Baş verməmişdir |
| **Dəniz ətraf kirliliği** | Çirklənmə müşahidə edilməmişdir |
| **Hava məlumatları** | Külək: şimal-qərb, şimal küləyi 13-18 m/s, arabir 20-23 m/s,<br>Dalğanın hündürlüyü: 2.5-3.5 m.<br>Görünüş: 2 km-dən artıq.<br>Temperatur gecə 24-26° isti, gündüz 26-28° isti |

## DƏNİZ QƏZASININ TƏSVİRİ

31 iyul 2024-cü il tarixində saat 04:30 radələrində Gəmi Hərəkətinin İdarəedilməsi Mərkəzinə gəmilərdən Qəza Həyəcan (Distress) siqnalı daxil olmuşdur. Siqnalı göndərən gəmi stansiyasının Dəniz Mobil İdentifikasiya Xidməti (MMSI) nömrəsi vasitəsilə təhlükədə olan gəmi tanimlanan zaman Azərbaycan Dövlət Bayrağı altında üzən "Bue Caspian Limited" Şirkətinin Azərbaycan Respublikasındakı Nümayəndəliyi tərəfindən istismar edilən 40º 07' 42" N, 051º 09' 41" E coğrafi koordinatlarda olan “Caspian Pover” yedək-təchizat gəmisindən qəza həyəcan siqnalının daxil olduğu məlum olmuşdur. Adıçəkilən gəmi ilə radio rabitə əlaqəsi yaradılmağa çalışılmış, lakin çağırışlara cavab gəlməmişdir. Qəbul edilən fəlakət siqnalının coğrafi koordinatlarına yaxın olan “Caspian Challenger” gəmisi çağırışa cavab vermiş və “Caspian Pover” gəmisində yanğın baş verdiyini və kömək etmək məqsədilə hadisə yerinə hərəkətdə olduğu məlumatını vermişdir.

29 iyul 2024-cü il tarixində saat 18:30-da adıçəkilən gəmi 23 nəfər heyət, 18 nəfər xüsusi personal və göyərtəsində müxtəlif avadanlıqlar olan 7 konteyner cəmi 30 ton yük ilə “Çıraq-1” dərin dəniz özülü ətrafında dalğıc işlərinin aparılması məqsədi ilə “Puta Dəniz Limanı”nın körpüsündən ayrılmışdır. Gəminin göyərtəsində 7 ədəd konteyner daxilində müxtəlif dalğıc avadanlıqları və 18 nəfər xüsusi personal ilə “Cıraq-1” dərin dəniz özülü ətrafında sualtı tədqiqat işlərinə cəlb edilmişdir.

31 iyul 2024-cü il tarixində saat 04:07 radələrində “Caspian Pover” gəmisinin maşın bölməsində açıq alov ilə yanğın hadisəsi baş vermişdir. Yanğının söndürülməsi gəmi heyətinin yanğın söndürmə qrupunun səyi və gəmidəki sabit CO2 yanğınsöndürmə sisteminin istifadəsi ilə mümkün olmamış gəmi kapitanı tərəfindən gəminin tərk edilməsinə qərar verilmişdir

Həmin gün Milli Hidrometeorologiya Xidməti Hidrometeoroloji Proqnozlar Bürosu tərəfindən verilən hava məlumatına əsasən sözügedən rayonda cənub-şərq, cənub küləyi 18-23 m/s, arabir 25 m/s, gecə 13-18 m/s, arabir 20-23 m/s, səhər şimal-qərb, şimal küləyi 13-18 m/s, arabir 20-23 m/s, görünüş 2 km-dən artıq, dalğanın hündürlüyü 2.5-3.5 m, havanın temperaturu gecə 24-26° isti, gündüz 26-28° isti. SX-128 nömrəli 30 iyul 2024-cü

il tarixli Sahilboyu Xəbərdarlığa əsasən Xəzər dənizində suyun səviyyəsi Kronştadt futştoku səviyyəsindən 28,95 m aşağı olmuşdur.



Saat 04:15 radələrində ÇYT radio rabitə vasitəsi ilə ətrafdakı gəmilər köməyə çağırılmış, 04:53 radələrində ətrafda olan “Caspian Voyager”, “Caspian Protector”, “Xocalı” və “Caspian Provider” gəmiləri hadisə yerinə gəlmiş, baş vermiş yanğını sönürmək, eyni zamanda xüsusi personalın və gəmi heyətinin təxliyəsi işinə başlamış, 15 nəfər “Caspian Challenger” gəmisinə, 26 nəfər “Caspian Protektor” gəmisinə təxliyə edilmişdir.



Şəkil 1. Helikopter görünüşü. "Caspian Pover" gəmisini ətrafdakı gəmilərin söndürməyə çalışması.

Saat 05:00 radələrində “Caspian Challenger” gəmisi yanmaqda olan “Caspian Pover” gəmisini yedəyə alaraq neft-qaz istehsalı sahəsindən uzaqlaşdırmağa başlamış, eyni zamanda yaxında olan digər gəmilər dəniz suyu ilə yanğını söndürməyə davam etmişlər. 31 iyul 2024-cü il tarixində saat 10:10 radələrində SX-131 nömrəli Sahilboyu Xəbərdarlıq yayımlanaraq baş vermiş hadisə və yedəkləmə əməliyyatı barədə ətrafdakı gəmilərə rəsmi məlumat verilmişdir.

Saat 11:25 radələrində Şimal-Qərb küləyinin artması nəzərə alınaraq yedəkləmə əməliyyatı sığınmaq məqsədi ilə Türkan reydinə yönləndirildi. Saat 14:08 radələrində FHN-ə məxsus “Vixr-5” yanğınsöndürmə gəmisi hadisə yerinə çatmış və yanğınsöndürmə əməliyyatına rəhbərlik etməyə başlamışdır. “Caspian Pover” gəmisində baş vermiş yanğını

gün boyu söndürmək mümkün olmamış, 01 avqust 2024-cü il tarixində də əməliyyat davam etmişdir.






Şəkil 2. Helikopter görüntüsü, "Caspian Pover" gəmisində FHN-in yanğınsöndürmə əməliyyatı.

02 avqust 2024-cü il tarixində saat 09:00 radələrində gəmini su ilə söndürməyə çalışıldığından normadan artıq ağırlaşaraq suya oturumu 8 metrə çatmış və batma riski yaranmışdır. Hadisələrin növbəti inkişafında gəmini kontrollu saya oturdulmasına qərar verilmiş GHİM tərəfindən uyğun ərazi ayrılmış, 09:50 radələrində "Xanlar" adasından şərq tərəfə 40º 17' 46"N, 050º 07' 29"E coğrafi koordinatlarında saya oturdularaq yanğınsöndürmə əməliyyatına davam edilmişdir.

03 avqust 2024-cü il tarixində 06:30 radələrində "Caspian Pover gəmisində baş vermiş yanğın tamamilə söndürülmüş, 11:00 radələrində gəmi daxilinə yığılan yağlı dəniz suyunun "Suqovuşan" və "Bakı-357" tankerlərinə boşaldılaraq təmizlənməsi işinə başlanmışdır.

08 avqust 2024-cü il tarixində "Caspian Pover" gəmisi saydan çıxarılmış 21 avqust 2024-cü il tarixində "CMS Pəhləvan gəmisinin yedəyində "Puta Dəniz Limanı"na gətirilmişdir.

# DƏNİZ QƏZASININ NƏTİCƏLƏRİ

31 iyul 2024-cü il tarixi saat 04:15 radələrindən 03 avqust 2024-cü il saat 06:30 radələrinə qədər “Caspian Pover” yedək təchizat gəminin maşın bölməsində başlayaraq yaşayış bölmələrini də əhatə edərək 3 gün söndürülməsi əməliyyatı aralıqsız davam edən yanğın hadisəsi nəticəsində adıçəkilən gəmi tamamilə yanaraq istismara yararsız vəziyyətə düşmüşdür.



Şəkil 3. Yangından sonra "Caspian Pover" gəmisinin limandan görüntüsü.





Şəkil 4. Yanğından sonra "Caspian Pover" gəmisinin göyərtəsi



Şəkil 5. Yanğından sonra "Caspian Pover" gəmisinin kapitan körpüsü



Şəkil 6. Yanğından sonra "Caspian Pover" gəmisinin baş mühərriki



Bue Caspian Limited" Şirkətinin Azərbaycan Respublikasındakı Nümayəndəliyinin müraciəti əsasında “Caspian Pover” yedək təchizat gəmisi 03 sentyabr 2024-cü il tarixində Azərbaycan Respublikasının Berbout-Çarter Reyestrindən çıxarılaraq çıxdaş edilmişdir.

Dəniz qəzası zamanı heyət üzvlərindən xəsarət alan olmamış və ətraf mühitin çirklənməsi müşahidə edilməmişdir.

## DƏNİZ QƏZASINDA AİDİYYƏTİ OLAN ŞƏXSLƏR HAQQINDA MƏLUMATLAR



Xudaverdiyev Elşən Ələsgər oğlu, 01.07.1976, “Caspian Pover” yedək-təchizat gəmisinin kapitanı, Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyində Dövlət Dəniz və Liman Agentliyi tərəfindən verilmiş 000547/24 nömrəli şəhadətnaməsi (işçi diplomu) 13 mart 2029-ci il tarixinədək qüvvədədir, dəniz nəqliyyatında cəmi 26 il iş stajı var.

Hüseynov Orxan Cəfər oğlu, 19.05.1986, “Caspian Pover” yedək-təchizat gəmisinin kapitanının baş köməkçisi, Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyində Dövlət Dəniz və Liman Agentliyi tərəfindən verilmiş 000017/24 nömrəli şəhadətnaməsi (işçi diplomu) 09 yanvar 2029-ci il tarixinədək qüvvədədir, dəniz nəqliyyatında cəmi 10 il iş stajı var.

Quliyen Nail Ağanfər oğlu, 04.01.1988, “Caspian Pover” yedək-təchizat gəmisinin kapitanının növbə köməkçisi, Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyində Dövlət Dəniz Agentliyi tərəfindən verilmiş 000142/20 nömrəli şəhadətnaməsi (işçi diplomu) 04 mart 2025-ci il tarixinədək qüvvədədir, dəniz nəqliyyatında cəmi 12 il iş stajı var.

Mirzəyev Zamiq Şöhrəddin oğlu, 01.08.1987, “Caspian Pover” yedək-təchizat gəmisinin baş mexaniki, Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyində Dövlət Dəniz və Liman Agentliyi tərəfindən verilmiş 001212/22 nömrəli şəhadətnaməsi (işçi diplomu) 04 iyul 2027-ci il tarixinədək qüvvədədir, dəniz nəqliyyatında cəmi 14 il iş stajı var.

Eminov Hüseynalı Namin oğlu, 06.05.1971, “Caspian Pover” yedək-təchizat gəmisinin ikinci mexaniki, Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyində Dövlət Dəniz və Liman Agentliyi tərəfindən verilmiş 000758/23 nömrəli şəhadətnaməsi (işçi diplomu) 12 iyun 2028-ci il tarixinədək qüvvədədir, dəniz nəqliyyatında cəmi 31 il iş stajı var.

## DƏNİZ QƏZASININ BAŞVERMƏ SƏBƏBİ VƏ ŞƏRAİTİ



Azərbaycan Respublikasının Dövlət bayrağı altında üzən “Caspian Pover” yedək-təchizat gəmisi ilə baş vermiş dəniz qəzasının araşdırılması məqsədilə yaradılmış komissiya tərəfindən dəniz qəzasına dair şahidlərin və aidiyyəti şəxslərin izahat və sorğu protokollarından, eləcə də dənizdə baş vermiş yanğın tam söndürülərək yedəyə alınıb “Puta Dəniz Limanı”na gətirildikdən sonra adıçəkilən gəmiyə baxış keçirilərkən müəyyən olunmuşdur ki, 31 iyul 2024-cü il tarixində Xəzər dənizinin Azərbaycan Respublikasına mənsub olan bölməsində Azərbaycan Respublikasının Dövlət bayrağı altında üzən “Caspian Pover Limited” şirkətinə məxsus olan, “BUE Caspian Limited” şirkətinin Azərbaycan Respublikasındakı nümayəndəliyi tərəfindən istismar olunan “Caspian Pover” yedək-təchizat gəmisinin “Azəri-Çıraq” neft özülləri yaxınlığında sağ baş mühərrikdə başlamış yanğın nəticəsində tamamilə yanaraq yararsız vəziyyətə düşməsi ilə nəticələnən dəniz qəzası baş vermişdir.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 08 may 2000-ci il tarixli 83 nömrəli Qərar ilə təsdiq edilmiş “Azərbaycan Respublikası dəniz nəqliyyatı gəmilərində xidmət Nizamnaməsi”nin 78-ci bəndi ilə xəritələrin, losiyaların və üzmə üçün digər əyani vəsaitlərin vaxtında təshih olunmasından ötrü dənizçilər üçün naviqasiya xəbərlərinin (NAVİM) (NAVİP) və naviqasiyanın dəyişməsi haqqında digər məlumatların alınmasına daim nəzarətin həyata keçirilməsi, meteoroloji şəraitin nəzərə alınması üzmə dövründə kapitanın vəzifələrinə aid edilmişdir.

Adıçəkilən gəminin növbədə olan mexaniki Eminov Hüseynalı Namin oğlu izahatında və sorğu zamanı anidən sağ baş mühərrikində açıq alovun yaranmasını müşahidə etdiyini bildirmişdir. Yanğın yanacaq sistemində baş vermiş sızma səbəbindən yüksək təzyiqli yanacaq nasosunun yanacağı mühərrikin üzərinə və yanmış qazların xaric olma sisteminə püskürtməsi nəticəsində baş vermişdir. Maşın bölməsində növbədə olan mexanikin yanğını gördüyü anda mühərriki tez saxlamaması yanan açıq alova yüksək təzyiq ilə daha çox yanacağın püskürdülməsinə və yanğının həcminin daha da artmasına gətirib çıxarmışdır. Maşın bölməsində növbədə olan növbə mexaniki və motorçu tərəfindən səyyar yanğınsöndürmə avadanlıqları ilə müdaxilə edilsə də yanğın söndürülə bilməmiş növbə

mexaniki yaranmış qatı tüstüdən çıxışı tapa bilməmiş baş mexanik tərəfindən xilas edilərək açıq göyərtəyə çıxarılmışdır. Gəminin yanğın söndürmə qrupunun nəfəsalma aparatı və odadavamlı geyim ilə təchiz edilərək yanğının söndürülməsi üçün etdikləri cəhdləri də nəticəsiz olmuşdur. Yanğının nəzarətdən çıxması nəzərə alınaraq yaxınlıqda olan gəmilərin köməkliyi ilə gəmidə olan xüsusi heyətin təxliyəsi işinə başlanmış, sabit karbon qazı ilə yanğınsöndürmə sisteminin aktiv edilmiş ancaq gəminin yanğın qapaqlarının tam bağlanmamasi səbəbindən maşın bölməsinin germetikliyi təmin edilməmiş və yanğın sönməmişdir. Gəminin tüstü bacası yaşayış bölməsinin içindən keçdiyindən yanğın gəminin kapitan körpüsünü də əhatə edərək miqyası genişlənmiş, nəticədə gəmi yanaraq istismara yararsız vəziyyətə düşmüşdür..



## DƏNİZ QƏZASINDA AİDİYYƏTİ OLMASI MÜƏYYƏN EDİLMİŞ FAKTLAR

“Caspian Pover” yedək-təchizat gəmisi ilə baş vermiş dəniz qəzasına aidiyyəti olan digər faktlar müəyyən edilməmişdir.

## Xarici amillərin təsiri, psixoloji durumu, yorğunluq dərəcəsi nəzərə alınmaqla, dəniz qəzasında aidiyyəti olan şəxslərin hərəkətlərinin qiymətləndirilməsi



“Caspian Pover” yedək-təchizat gəmisinin heyətindən alınmış izahatlardan, sorğulardan, iş və istirahət saatları hesabatlarından, gəmidə mövcud heyətin minimum heyət tərkibindən çox olmasından, hadisə zamanı gəmi gözləmə rejimində (stand by) olduğundan və toplanmış digər materiallardan müəyyən olunmuşdur ki, dəniz qəzası baş verərkən hər hansı xarici amillərin təsiri, psixoloji çətinlik olmamışdır. Eləcə də gəmi heyətinin iş vaxtı qanunvericiliyə uyğun təşkil olunduğundan yorğunluq faktı qeydə alınmamışdır.

## Kimin tərəfindən hansı tələblərin pozulduğu göstərilməklə, hərəkət və ya hərəkətsizliyi dəniz qəzasına səbəb olmuş və ya təkan vermiş şəxslərin siyahısı

“Caspian Pover” yedək-təchizat gəmisinin növbə mexaniki Eminov Hüseynalı Namin oğlunun şirkətin ƏİS-in tələblərinə uyğun maşın bölməsində növbə tutma və işləyən mexanizmlərə nəzarətinin yetərsiz olması, sağ baş mühərrikdə açıq alov müşahidə etdiyi zaman mühərriki gec dayandırması, gəmi heyətinin maşın bölməsinin germetikliyini təmin edə bilməməsi nəticəsində $CO_2$ yanğınsöndürmə sisteminin effektsiz olması.

## Gələcəkdə dənizdə belə qəzaların qarşısının alınmasına dair tövsiyələr

**Gəmi heyətinə:**

1. Şirkətin təlim qrafikinə uyğun təşkili edilmiş bütün təlim və məşğələlərdə iştirak etməsi, vəzifə təlimatlarını bilməsi,
2. Gəminin yanğın planı və xilasedici vasitələrin yerləşmə sxeminə uyğun avadanlıqların yerlərinin öyrənilməsi,
3. Yanğın təlim kitabçasına uyğun yanğınsöndürmə avadanlıqlarının istifadə qaydalarının öyrənilməsi,
4. Bütün növ qəza həyəcan siqnallarında hazırlıqlı olması;

**Gəmi kapitanına:**

1. Gəmi səfərə çıxmadan öncə yanğın və xilasedici avadanlıqlarının yaxşı vəziyyətdə olmasına əmin olması;
2. Heyətin bütün növ qəza həyəcan siqnallarında hazırlığına nəzarətin və yoxlanılmasının təşkili;
3. Maşın bölməsində yanğın ssenarisi yaradaraq uyğun təlimlərin mütəmadi təşkil edilməsi;
4. Gəmi heyətinin gəminin zədələrə qarşı nəzarət planını bilməsinə əmin olması;
5. Gəminin dəniz üzgüçülüyü üçün təhlükəli və ya dayaz sularda üzdüyü müddət ərzində gəmi heyəti tərəfindən müşahidənin gücləndirilməsinə nəzarət edilməsi;

**“BUE Caspian Limited” şirkətinin Azərbaycan Respublikasındakı nümayəndəliyinə:**

1. Şirkətin illik təlim planına uyğun təlimlərin vaxtında və real olaraq təşkil edilməsinə nəzarət edilməsi;
2. Fövqəladə hallarda gəmi kapitanının məlumatı əsasında vəziyyətin düzgün qiymətləndirilməsi, dəqiq qərar verərək lazımi effektiv köməyin vaxtında göstərilməsi;
3. İstismarda olan gəmilərin maşın bölmələrinin yanğın qapaqlarının kip bağlanmasının və $CO_2$ sisteminin keçiriciliyinin və sızdırmazlığının yoxlanılması;
4. İstismarda olan gəmilərdə maşın bölməsində yanğın ssenarisi ilə təlimlərin təşkil edilməsi;

**Dövlət Dəniz və Liman Agentliyinə:**

1. Gəmilərin bayraq nəzarət yoxlamalarında maşın bölməsində yanğın təlimlərinin icra edilməsinin təşkili;